*Ramiz Duyğun*

# NƏ YAXŞI Kİ, TÜRKİYƏ VAR...

(sənədli-bədii publisistika)

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

HƏRBİ NƏŞRİYYAT
BAKI – 1997

66.4 Az
D 87

**Ramiz DUYĞUN**
**NƏ YAXŞI Kİ, TÜRKİYƏ VAR...**
Bakı, "Hərbi Nəşriyyat", 1997, 72 səh.

Azərbaycan Respublikasının Müdafiə naziri **general-leytenant Səfər Əbiyevin** 6-11 iyun 1996-cı il tarixdə Türkiyə Respublikasına rəsmi səfərinə həsr edilir.

D $\frac{87}{022}$ 97

KOD – 022

© Hərbi Nəşriyyat, 1997




*Mustafa Kamal*
*Paşa Atatürk:*

**"Öldürəcəyik" deyənlərə qarşı "ölməyəcəyik" – deyə hərbə girə bilərik. Lakin millətin həyatı təhlükəyə mə'ruz qalmayinca, hərb bir cinayətdir".**



*Heydər Əliyev:*

**"Hər bir vətəndaş, hər bir azərbaycanlı hiss etməlidir ki, indi Vətəni qorumaq üçün hərə öz payını verməlidir, hərə öz yerini tapmalıdır. İndi hər kəs müsəlləh əsgər olmalıdır. Bundan artıq vəzifə yoxdur. Bütün qalan problemlər sonra həll ediləcəkdir. Bütün digər problemlər ikinci, üçüncü sıraya keçməlidir. Ön cərgədə, birinci növbədə bu problem durmalıdır. Hamı onun ətrafında birləşməlidir".**




Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəl Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant Səfər Əbiyevi və nümayəndə hey'ətini qəbul edir.

*6 İYUN*

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nümayəndə hey'əti Türkiyə Respublikasına rəsmi səfərə yola düşür. Nümayəndə hey'ətinə Respublikanın Müdafiə naziri, general-leytenant Səfər Əbiyev rəhbərlik edir. Nümayəndə hey'ətini Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı hərbi attaşesi tuğgeneral (general-mayor – R.D.) Əngin Alan müşayiət edir. Bu, Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra Azərbaycan və Türkiyə respublikaları Silahlı Qüvvələri arasında hərbi nümayəndə hey'ətinin ilk rəsmi səfəridir. Bu, tarixi bir səfər, Azərbaycan – Türkiyə hərbi münasibətlərində yeni mərhələnin başlanğıcıdır.

Saat 9.05-də hava gəmisi kapitanı Yaqub Hümbətov "TU-134 A" təyyarəsinin mühərrikini işə saldı. Təyyarə Binə hava limanından səmaya qalxdı. Çoxdandır təyyarə ilə uçmuram, odur ki, bir az həyəcanlıyam. Həyacanımı artıran əsas amil isə uşaqlıqdan həsrətində olduğum, lakin ilk dəfə görüşünə getdiyimiz Türkiyəyə səfər etməyimizdir. Məndən asılı olmadan ürəyimdə pıçıldayıram: "Bakı, salamat qal! "

Stüardessa Lətifə xanım e'lan edir ki, təyyarəmiz saat 11.50-də İstanbuldakı Atatürk hava limanında yerə enəcəkdir.

Həyatımız buludlar amanındadır. Təyyarə 10 min metr hündürlükdə, saatda 800 km sür'ətilə uçur.

Çox keçmədən yenə də yer görünməyə başlayır: yollar, meşələr, dağlar, çaylar. Təyyarə torpağa yaxınlaşır. Həmişə qəlbimizdə olan türk vətəni, Türkiyə torpağı doğrudan da çox yaxın imiş. Təyyarə buludlardan sıyrılıb çıxır və onun əksi nəhəng bir güzgüyə düşür. Bu, Qara dənizdir. Sular sakitdir, Qara dəniz qara şüşəli bir ayna kimidir.

Saat 12.00-də Atatürk hava limanında yerə enirik.

Salam, Türkiyə!

Salam, İstanbul!






İstanbul. Atatürk hava limanında qarşılama mərasimi

Əsrlərlə öz adət və ən'ənələrini yaşadan xalqa, evlərini də eyni me'marlıq üslubunda tikən, eyni rənglə bəzəyən xalqa! Məşhur Bosfor boğazının üstüylə uçuruq. Bosfor boğazından (buna xalq arasında "Boğaz içi" də deyirlər) keçmək üçün dünyanın müxtəlif ölkələrindən gəlmiş yük gəmiləri öz növbəsini gözləyir. Onlardan bir az aralıda onlarca balıqçı gəmiləri cırtdan oyuncaqlara oxşayır. Bu mənzərə boğaza əsrarəngiz gözəllik verir.

İstanbula səmadan baxanda ilk növbədə diqqəti cəlb edən ucsuz-bucaqsız şəhər mənzərəsində göylərə ucalan minarələr adamın gözlərini oxşayır. İstanbulda 900-dən çox minarə var.

Bosfor boğazı Qara dənizlə Mərmərə dənizini birləşdirir. Təsvirəgəlməz bir gözəllik üzərində dilim-ağzım lal olmuşdur. Bu gözəlliyi təsvir etmək qələm işi deyil. Bosfor boğazının üstündən atılmış, dillərdə dastan olan, dünya mö'cüzələrindən sayılan iki asma körpü görünür. Boğazın iki sahilində yerləşən İstanbulun yarısı Avropa qit'əsində, o biri yarısı isə Asiya qit'əsindədir. İstanbul iki dənizin dörd sahilində, bir boğazın iki sahilində yerləşir.

Şəhərin Avropa yarısında əsasən dövlət idarələri, banklar, sənaye və ticarət, təhsil müəssisələri yerləşir.

Asiya yarısında isə yaşayış evləri, müxtəlif biçimli massivlər uzanır...

Vertolyotlar kolordu (korpus – R. D.) qərargahı meydanında yerə enir. Burada nəqliyyat vasitələri dəyişdirilir. Avtomobillərə minirik və yolumuz "Kaləndər" ordu evinə davam edir. İstanbul küçələrinin yaşıllığında qərq oluruq. Gəlib mənzil başına çatırıq. Qabaqcadan hər adama bir otaq ayrılmışdır. Mənə 321-ci otaq düşür.

"Kaləndər" ordu evi lap Qara dənizin sahilindədir.

Bir azdan sonra Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı hərbi attaşesi Əngin Paşa və xanımı adından nümayəndə hey'ətinə nahar yeməyi verildi.





General-leytenant Səfər Əbiyev və korgeneral Edip Başər

Nahardan sonra nümayəndə hey'əti 1-ci Ordu evinə yollandı. Yenə də İstanbul şəhərinin təkrarsız gözəlliklərinə qərq olduq. Asfalt yollar əl içi kimi hamardır. Maşınlar çox sür'ətlə hərəkət edir. Bosfor boğazının üstündən atılmış asma körpüdən keçirik. Buradan keçən hər bir kəs gömrük pulu verməlidir. Bu, dövlət qanunudur.

İstanbul şəhərində heç nə bir-birini təkrar etmir. Nə təbiət gözəllikləri, nə də insanların yaratdıqları gözəlliklər. Eyni olan yalnız bir şey vardır: İstanbul tikililərinin qırmızı kirəmitlə örtülməsi. Bu, əlamət mən gördüyüm şəhərlərin heç birində yoxdur.

Yol boyu Ərtoğrul Bostançıya suallar verirəm. O, deyir ki, İstanbulun uzunluğu 200 km-dir. Söhbət yolu qısa edir. Birinci Ordu komutanlığına (komandanlığına – R. D.) gəlib çatırıq. Möhtəşəm darvazlar açılır. Gözümüzə dəyən bütün əsgər və zabitlər farağat vəziyyətindədirlər. Birinci Ordu komandanlığı Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nümayəndə hey'ətini təntənəylə qarşılayır. Hərbi orkestr çalır. Müdafiə nazirimiz general-leytenant S. Əbiyev Fəxri Qarovulun qarşısından keçir. Sonra Birinci Ordu komandanı orgeneral (ordu generalı – R. D.) Hikmət Göksal nümayəndə hey'ətini qəbul edir. O deyir: "İki ildən bəri Türkiyə Silahlı Qüvvələri Birinci Ordusunun çox müsafirləri olmuşdur. Sizin müsafirliyiniz tamam başqadır. Qardaş ölkənin, dost ölkənin savunma bakanı (müdafiə naziri – R. D.) olaraq, Sizi görməkdən duyduğum zövqü, iki ildə gələn müsafirlərdən duymadım. İndiyə qədər Azərbaycana gələ bilmədiyim üçün üzüntü keçirirəm. Zaman-zaman buraya gələn çeşidli arkadaşlar bizim işlərimizi seyr etdilər. Ancaq Sizin verdiyiniz şərəfi onlar vermədilər. Biz eyni soyun insanları olaraq, uzun müddət bir arada olmağa həsrət çəkmişik. Bir türk insanı olaraq, bir türk Silahlı Qüvvələri generalı olaraq, görüşümüzdən bəxtiyarlıq duyduğumu ifadə etmək istəyirəm. Birinci Ordu Türkiyə Qara (piyada – R.D.) Qüvvələrinin ən böyük ordusudur..."Sonra o, Birinci Ordunun yaranma tarixindən danışdı. Mə'lum oldu ki, Birinci Ordu 1843-cü ildə






"Kaləndər" ordu evinin bir görünüşü

yaradılmışdır. Sultan Türkiyəsinin və Türkiyə Respublikasının cəlb edildiyi və apardığı ən böyük savaşlarda iştirak etmişdir. Hazırda Səlimiyyə qışlasında yerləşdirilmişdir. Səlimiyyə qışlası isə 1799-cu ildə tikilib. Bu gün Birinci Ordunun bölmələri 288 otaqda yerləşir. Tarixi boyu Birinci Ordunun 69 komutanı (komandanı – R.D.) olmuşdur. Ordu generalı Hikmət bəy Göksal 70-ci komandandır.

Sonra Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant S.Əbiyev səmimi qəbul üçün nümayəndə hey'əti adından Hikmət Paşaya öz minnətdarlığını bildirdi. Azərbaycan Silahlı Qüvvələrinin yaranma tarixindən danışdı. Respublikamızda mövcud olan ictimai-siyasi vəziyyətdən, Silahlı Qüvvələrimizin quruculuq planlarından və Ermənistan Respublikasının Azərbaycana qarşı həyata keçirdiyi təcavüzkarlıq əməllərindən danışdı.

Axşam Fənərbaxça Ordu evində Birinci Ordu komandanı ordu generalı Hikmət bəy Göksal Azərbaycan Respublikası Müdafiə Nazirliyi nümayəndə hey'ətinin şərəfinə böyük ziyafət verdi. Də'vət olunmuş türk generalları və zabitləri ziyafətə öz xanımları ilə gəlmişdilər.Hikmət bəy Göksal məclisi açdı. Səmimi, duyğulu ordu generalı çox şairanə danışırdı. O, səmimiyyətlə bizim nümayəndə hey'ətinin şəxsində Azərbaycan xalqını salamladı. Ölməz Mustafa Kamalın bir vaxt dediyi "**Azərbaycan xalqının dərdi – bizim dərdimiz, sevinci – bizim sevincimizdir**"– sözlərini dönə-dönə təkrar etdi, öz emosional, hərarətli nitqi ilə özünü və ziyafət iştirakçılarını kövrəltdi.

General-leytenant S.Əbiyev cavab nitqi söylədi. O, ev sahiblərini Azərbaycan xalqı adından, möhtərəm Prezidentimiz Heydər Əliyevin adından salamladıqdan sonra dedi:"Biz özümüzü Türkiyə torpağında öz evimizdə olduğumuz kimi hiss edirik. Hesab edirəm ki, Azərbaycan Respublikası Silahlı Qüvvələri nümayəndə hey'ətinin gəlişilə Azərbaycan-Türkiyə əsgər qardaşlığının yeni mərhələsi başlanır. Azərbaycan xalqı tarixinin ən ağır çağlarında qəhrəman türk əsgər öz



qanını və canını ondan əsirgəməmişdir. Azərbaycan torpağı Azərbaycan əsgərinin qanı ilə birgə türk əsgərinin də qanı ilə yetərincə suvarılmışdır. Azərbaycan torpağı yenilməz türk əsgərinin də Vətənidir. Biz bu gün öz vətənimiz Türkiyədəyik, doğma qardaşlarımızın və arkadaşlarımızın yanındayıq.

Türk əsgərinin Azərbaycan istiqlalı uğrunda tökdüyü qanları Azərbaycan xalqı heç vaxt unutmamışdır. Bu fədakarlıq onun qan yaddaşına hopmuşdur. Biz, hər iki dövlətin Silahlı Qüvvələrinin indiki nəsli tarixi qardaşlığımızı və dostluğumuzu durmadan inkişaf etdirməli, ən yüksək zirvələrə çatdırmalıyıq. Azərbaycan Silahlı Qüvvələri gəncdir, onun böyük təcrübə toplamağa, öyrənməyə ehtiyacı vardır. Biz iftixar hissilə qeyd edirik ki, bizim öyrənməyə Türkiyə Silahlı Qüvvələri kimi zəngin təcrübəsi, qəhrəmanlıq tarixi olan arxamız və dayağımız vardır". "Azərbaycan Respublikasının Müdafiə naziri axırda qan birliyi, yaddaş birliyi naminə Azərbaycan-Türkiyə əsgər qardaşlığının sağlığına badə qaldırdı.

Bizim nazirin çıxışını türklər çox hərarətlə qarşıladılar.

### *7 İYUN*

Yuxudan tez oyanıram. Qarşıda çox gərgin bir gün durur. Səhər yeməyindən sonra Türkiyə Hərb Akademiyaları komutanlığına yollanırıq. Akademiya 1848-ci ildə yaradılmışdır. Dünyanın hərb akademiyaları sırasında dayanan elm ocaqlarından biridir. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nümayəndə hey'ətini Türkiyə Hərb Akademiyalarının rəisi orgeneral Attila Atəş və akademiyanın digər əməkdaş-ları səmimi qarşılayırlar. Attila Atəş Akademiyanın 54-cü rəisidir. Akademiyaya daxil olan kimi birinci otaqda (əslində girəcəkdə) müxtəlif dövlətlərə məxsus guşələr yaradılmışdır. Deməк olar ki, ilk guşə Azərbaycan Respublikasına həsr edilib. Akademiyanın ərazisini gəzirik. Tez-tez "kurmay" sözünü eşidirik. Deməyəsən bu,



Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI
1434

akademiyaları bitirənlərin titulu imiş. Akademiyanın böyük mətbəəsi və kitabxanası vardır.

Akademiyalara daxildir:

— Qara (piyada) Hərb Akademiyası;

— Hava Hərb Akademiyası;

— Dəniz Hərb Akademiyası.

Əvvəlcə **Qara Hərb Akademiyasını** gəzirik. Hər yerdə təmizlik hökmrandır. Hər şey güzgü kimi parıldayır. Burada oxuyan həmyerlilərimizlə görüşürük. Azərbaycan Silahlı Qüvvələrinin zabitləridir. Qarabağ müharibəsinin iştirakçılarıdır. Müdafiə naziri general-leytenant Səfər Əbiyev onlarla səmimi görüşür, arzuları, istəkləri və qayğıları ilə maraqlanır, öz tövsiyyələrini edir. Onlara Akademiyanı ə'la qiymətlərlə bitirməyi arzulayır. Akademiyanın hərb oyunları salonu. Burada hər şey kompüterdə proqramlaşdırılıb. Bizim üçün bir hərb oyununun modeli nümayiş etdirilir. Hər şey göz qabağındadır.

**Hava Hərb Akademiyası**. Onun tədris-maddi bazası bu günün ən yüksək tələblərinə cavab verir. Baxmaqla doymaq olmur. Gərək burada oxuyasan. Nə yaxşı ki, arzum çin olur. Koridorda düzülmüş kursantlar arasında həmyerlimizlə tanış oluruq. Füzuli rayonundandır. Qarabağ döyüşlərinin iştirakçısıdır.

**Dəniz Hərb Akademiyası**. Özünəməxsusluğu ilə fərqlənir. Ən müasir tədris-maddi bazası vardır. Belə də olmalıdır. Türkiyə dənizlər dövlətidir. Onun sahillərini Qara dənizin, Mərmərə dənizinin, Ağ dənizin və Egey dənizinin suları yuyur. Dənizlər hökmdarı olan dövlətin Dəniz Hərb Akademiyası özünə layiqdir. Qürur hissi dəniz çalxantısıyla içimi tərpədir.

Burada da həmyerlimizlə görüşürük. Türkiyə Respublikasının Hərb Akademiyaları mə'zunlarına ali hərbi təhsil verir.

**Tarixi arayış:** Türkiyə Respublikası Silahlı Qüvvələri zabit kadrlarının təməl qaynağı hərbi məktəblərdir. Hər bir qoşun növü üçün bir hərbi məktəb mövcuddur.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI





Hərb Akademiyalarında brifinq.



Soldan birinci: korgeneral Edip Başər. üçüncü: Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant Səfər Əbiyev. dördüncü: Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı hərbi attaşesi tuğgeneral Əngin Alan.



Türkiyə Silahlı Qüvvələrinin ən yüksək tə'lim-tərbiyə qaynağı isə Hərb Akademiyalarıdır.

Osmanlı imperatoru Sultan Əbdülməcid I 1845-ci ildə Hərb Akademiyalarının yaradılması əmrini imzalamışdır. Bu əmrə əsasən 1848-ci ildə Qara Hərb Akademiyası yaradılmış və 1849-cu ildə ilk kurmay zabitlərini buraxmışdır.

1863-cü ildə Sultan Əbdüləzizin əmrləri ilə Dəniz Hərb Akademiyası yaradılır. 1911-1923-cü illərdə Türk-italyan savaşları, Balkan savaşları və I dünya savaşları zamanı Hərb Akademiyalarındakı tə'limə ara verilmişdir. 1923-cü ildə Qara Hərb Akademiyası və 1930-cu ildə Dəniz Hərb Akademiyası öz fəaliyyətlərini bərpa etmişlər.

Hava Hərb Akademiyası isə 1937-ci ildə yaradılmışdır.

İkinci dünya savaşı illərində Hərb Akademiyaları öz fəaliyyətlərini Ankarada, müharibə bitdikdən sonra isə yenidən İstanbulda davam etdirmişlər. 1950-ci ildə akademiyalarda təhsil müddəti 3 ildən 2 ilə endirilmişdir. 1952-ci ildə Milli Güvənlik (təhlükəsizlik – R. D.) Akademiyası, 1953-cü ildə Silahlı Qüvvələr Akademiyası yaradılmışdır. Akademiyalar 118 hektarlıq bir sahədə yerləşir. Çevrəsi 4770 metrdir.

Hərb Akademiyalarının qısa tarixçəsindən göründüyü kimi Akademiyalar Türkiyənin və dünyanın ən qədim elm ocaqlarındandır. Onun yetirmələrinin adı dünya hərb sərkərdələrinin adı ilə yanaşı çəkilir. Təkcə bunu demək kifayətdir ki. Türkiyə Hərb Akademiyaları mə'zunlarının 6 nəfəri Türkiyə Respublikasının prezidenti, 15 nəfəri isə ölkənin Baş naziri olmuşdur.

Hərb Akademiyaları mövcud olduğu illər ərzində onun divarları arasında xarici ölkələrin 200 nəfərdən çox zabiti ali hərb elminin sirlərinə yiyələnmişdir. Bu, Türkiyə Hərb Akademiyalarının dünya miqyasında nüfuzunun böyüklüyünü təsdiqləyir.



Hərb Akademiyalarında görüş.



Hərb Akademiyalarında görüş.

Həmin gün saat 12.10 dəqiqədə 3-cü kolordu (korpus – R. D.) komutanlığına gəldik. Kolordunun komutanı (komnadanı – R. D.) korgeneral (general-polkovnik – R. D.) Edip Başər Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant S. Əbiyevi qəbul edir. Nümayəndə hey'ətinin qalan üzvlərini kolordu kurmay başkanı (qərargah rəisi – R. D.) qəbul edir. Bizi və onları maraqlandıran sual-cavablarla fikir mübadiləsi edirik. Kurmay başkanını respublikamızdakı ictimai-siyasi və hərbi vəziyyət daha çox maraqlandırır. Mən də onu cavablarımla tə'min etməyə çalışıram.

Nahardan sonra bir tuğay (briqada – R. D.) komutanlığına gəlirik. Tuğay Topkülə qışlasında yerləşir. 1940-cı ildə yaradılmışdır. Tuğayın komandiri tuğgeneraldır. O, Müdafiə naziri general-leytenant S. Əbiyevi, nümayəndə hey'ətinin digər üzvlərini isə albay (polkovnik – R. D) rütbəli qərargah rəisi qəbul edir. Hara gediriksə, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nümayəndə hey'ətini böyük hərarət və səmimiyyətlə qarşılayırlar. Burada da yüksək səviyyədə qarşılanırıq. Oturan kimi çay süfrəsi açılır. Sərinlədici içkilər, xuruşlar süfrəni bəzəyir. Diqqəti cəlb edən isə xidmətçi əsgərlərdir. Onlar hər yerdə qara geyimli mülki paltardadırlar. Nizamnamənin tələbləri çərçivəsində davranırlar. Artıq bir söz danışmaz və hərəkət etməzlər.

Getdiyimiz hərbi hissələrdə, bir qayda olaraq, hərbi hissələrin tarixçəsi vardır. Qərargah divarların hərbi hissənin tarixinə dair fotostendlər və böyük Atatürkün hikmətli sözləri bəzəyir. Hər yerdə olduğu kimi burada da qərargahın girəcəyində Mustafa Kamal Paşanın bu sözləri yazılmışdır: **"Bir ordunun qüdrəti subaylarının** (zabitlərinin – R. D.) **və komanda hey'ətinin qiyməti ilə ölçülür"** Qərargahdakı fotostendlərə baxarkən bir yazı diqqətimi cəlb etdi. Bu, 1912-1913-cü illərdə Balkan hərbində Ədirnə birliklərinin komutanı Şükrü Paşanın vəsiyyəti idi:





Hərb Akademiyaları. Mustafa Paşa Atatürkə həsr olunmuş guşədən bir görünüş.



Nümayəndə hey'ətinin üzv'ləri görüş zamanı.





Hərb Akademiyaları. Soldan: tuğgeneral Əngin Alan, orgeneral Attila Ataş, general-leytenant Səfər Əbiyev. Akademiyanın "Şərəf" kitabına imza atarkən.




Briqada komandanlığı ilə görüş.



Briqadada görüş.



Briqada komandanlığı ilə görüş. Soldan ikinci: general-leytenant Səfər Əbiyev, üçüncü: tuğgeneral Əngin Alan, beşinci: general-mayor Məmməd Sarıyev.



Tə'lim poliqonunda.



Hərbi texnika sərgisi.



Tə'lim poliqonunda

"Düşmən xətləri keçdikdən sonra ölürsəm, kəndimi (özümü – R. D.) şəhid qəbul etmirəm. Məni məzara qoymayın. Ətimi itlər və quşlar çəkə-çəkə yesinlər. Fəqət, müdafiə xəttimiz pozulmadan şəhid olursam, kəfənim, lifim (maçalkam – R. D.), sabunum çantamdadır. Məni bu mahalla gömməcəksiniz və gələn nəsillər üzərimdə bir abidə tikəcəklərdir". Bu ali vətən duyğusunu oxuyub göz yaşlarımı saxlaya bilmədim. Bu sözlər bu gün hər bir Azərbaycan əsgəri üçün örnək olmalıdır. Türk əsgəri tarix boyu torpaqları uğrunda könüllü çarpışmış, Şükrü Paşa kimi kəfənini çantasında gəzdirmiş və vətən torpaqları uğrunda gedən döyüşlərdə həyatını əsirgəməmişdir...

Qərargahla tanışlıqdan sonra tuğayın tə'lim-məşq poliqonuna gəldik. Böyük bir ərazi dərə-təpədən ibarətdir. Əvvəlcə qarşıdakı tə'lim-məşqin nəzəri əsasları ilə tanış olduq. Sonra da tə'limə baxdıq. Taburda keçirilən tə'lim yüksək səviyyədə aparıldı. Tabur və bölük komandirləri öz vəzifələrini, qarşıda duran tapşırıqları, əməliyyatın gedişini gözlərini qırpmadan əzbər raportla özlərindən yuxarıda duran komandanlığa çatdırdılar və "həyata" keçirdilər. Tabur komandiri komanda-nəzarət məntəqəsindən (KNM) "döyüşü" məharətlə idarə edir, ratsiya ilə verdiyi əmrlərə dərhal da cavab alırdı. Ən kiçik detallarına qədər düşünülmüş tə'lim uğurla başa çatdı.

Sonra tuğay komandanlığının elə tə'lim poliqonunda təşkil etdiyi texnika sərgisinə baxdıq.

Axşam Hərb Akademiyalarının rəisi orgeneral Atilla Ataş Azərbaycan Respublikası nümayəndə hey'ətinin şərəfinə böyük ziyafət verdi. Orgeneral Atilla Ataş və general-leytenant Səfər Əbiyev nitq söylədilər. Qızğın, isti fikir mübadiləsi şəraitində keçən ziyafətin ən dəyərli, ləziz ne'məti türkün türkə olan məhəbbəti idi. Böyük, qədim Türkiyə Respublikasının, gənc Azərbaycan Respublikasına olan məhəbbəti idi...



## 8 İYUN

Bu gün mədəni proqram çərçivəsində keçirilən tədbirlərdə iştirak edirik. Səhər yeməyindən sonra Bosfor boğazının sahili boyunca gözəl İstanbulu ziyarət edirik. İstanbulun misilsiz gözəllikləri adamı heyran edir. Sahil boyu kiçik yaxtalar, qırmaq atan balıqçılar diqqəti xüsusilə cəlb edir. Sahildə bir qarış da boş yer yoxdur. Bosfor boğazının üstündənki körpülərin biri "Boğaziçi körpüsü", digəri "Fateh Sultan Mehmet körpüsü" adlanır. İstanbulda sıxlıqdır. Maşın yolları çoxistiqamətlidir və bu sıxlıq içərisində maşınların sür'əti yüksəkdir. Bizim "Mersedes"in sürücüsü ucaboylu, sarışın sıravi əsgər Orxan bəy maşını məharətlə idarə edir. Ciddi və az danışandır. Dindirməsən dinməz. Cavabları budur: "Əvət komutanım, xeyir komutanım". Maşın karvanının önündə polis maşınları gedir və bütün yollar bu maşın karvanına açıqdır.

Sahil boyu yolun hər iki tərəfində ucalan, baş-başa verən qoca çinarların kölgəsi yaşıl bir lağım yaratmış və maşınlar bu lağımda şütüyürlər. "İnönü" futbol stadionu solda qalır. Bir az irəlilədikdən sonra sola buruluruq və maşın karvanı "Dolmabağça" sarayının önündə dayanır. Sahildə bir gülzar. Baxmaqla doymaq olmur. "Dolmabağça" sözünün mənşəyi haradandır? Sarayın tikildiyi ərazi vaxtilə çökəklik olduğundan, buraya çoxlu torpaq gətirilərək, çökəklər doldurulub. Yə'ni torpaqla doldurulan bağça. Saray lap "boğazın" sahilindədir. Onun bir darvazası birbaşa Boğaziçinə açılır. Saray 1843-cü ildə tikilib. İstanbul şəhərindəki 3-cü tarixi saraydır. 1912-ci ildən elektrik işığıyla işıqlandırılır. Sarayın eksponatları qiymətli daş-qaşlardan hazırlanmış əşyalardan, Türkiyə sultanlarının işlətdikləri məişət predmetlərindən ibarətdir. Möhtəşəm, əzəmətli, geniş salonların hündür tavanlarından gözlərini çəkmək istəmirsən, az qala başı arxaya atılmış halda bölmədən-bölməyə addımlayırsan. Bu muzeyin inşasında 15 ton qızıldan istifadə olunmuşdur. Sarayın içində məscid də vardır. Padşahlar dini mərasimləri və ibadətlərini birbaşa onun içində həyata keçirirlərmiş. Saray tikildikdən sonra burada ilk yaşayan padşah Sultan Əbdülməcid olmuşdur.

Sarayda çoxlu turist qrupları ilə rastlaşırıq. Salonlardan ingilis, fransız və başqa dillər eşidilir. Burada 1,5 tonluq fransız büllurundan hazırlanmış çilçıraq içimi çilçırağa döndərir. Çəkisi 2 ton 200 kq olan çilçıraq da fransız büllurundan hazırlanıb. Napoleon Bonopartın hədiyyə verdiyi masa və onun üstündəki vaza qiymətli eksponatlardandır. Saraydakı yadda qalan bölmələrdən biri də onun sanitar şəbəkəsidir. Bu otaqların içi fransız mərməri ilə bəzədilib. Sanitar şəbəkəsinin iş prinsipi elə o zaman da bugünkü sanitar tələbləri səviyyəsində olmuşdur.

Sarayın salonlarını italyan və fransız rəssamlarının rəsm əsərləri bəzəyir. Ancaq yonulan misilsiz dolabı Osmanlı padşahlarının 3 nəslinin rəssamları işləyib hazırlayıblar.

Sultanın hərəmxanası, yataq otağı cazibədardır. Deməliyəm ki, bu salonları bizim nümayəndə hey'ətinin şərəfinə açıb göstərdilər.

Nəhayət, Mustafa Kamal Paşanın yaşadığı odaya gəlib çatırıq. O, 1923-cü ildə Türkiyə Cümhuriyyətini yaratdıqdan sonra 10 il müddətində burada yaşamışdır. Sonra buradan ayrılmış, bir müddət ayrı yerdə yaşadıqdan sonra yenidən buraya qayıtmış və həyatının son üç ayını burada keçirmişdir. Onun vəfat etdiyi çarpayı çox hüzunlu görünür. Türkiyə Cümhuriyyətinin ay-ulduzlu dövlət bayrağı yatağın üstünə örtülmüşdür. Saat 9.05 dəqiqədə onun ürəyi dayanıb. Saatın əqrəbləri həmin vaxt üstündə əbədi donaraq qalıb. Otaqda Mustafa Kamal Paşanın böyük portreti asılıb. O, sanki ölüm yatağına ölümsüzlük ucalığından tamaşa edir...

Sarayın ən böyük salonunda 4 tonluq çilçıraq asılıb. Bu salonda Atatürkün cənazəsi qoyulmuş və bütün Türkiyə öz dahi oğlu ilə 3 gün ərzində burada vidalaşmışdır. Çoxyaşlı çilçıraq öz tarixində bundan böyük təntənə görməyib.

"Dolmabağça" sarayını ziyarət etdikdən sonra katerdə Boğaziçi gəzintisinə çıxırıq. Füsunkar gözəllik içində üzürük. Kater irəlilədikcə. sol tərəfdə Avropa qit'əsində "Rumeli hissarı" (qalası – R. D.) diqqəti cəlb edir. Bir az irəlidə Türkiyə Respublikasının keçmiş Baş naziri Tansu xanım Çillərin köşkü (evi – R. D.) görünür. Kater Sarıyer limanında dayanır. "Sarıyer" əsgər restoranında nahar edirik. Buradan Qara dənizə keçid aydın görünür. Doğrudan da "boğazdır".



Burada sahillər bir-birinə yaxınlaşaraq daralmış və boğaz əmələ gətirmişdir.

Nahardan sonra "Ayasofya" məscidini ziyarət edirik. Bizans imperiyası dövründə tikilib və imperiyanın baş kilsəsi imiş. 1453-cü ildə türklər Konstantinopolu fəth etmiş və 1456-cı ildə bu kilsəni məscidə çevirmişlər. Bu müxtəsər ziyarətdən sonra "Ayasofya" məscidinin tavanlarının hündürlüyü yadımda qalır...

"Ayasofya"dan sonra "Topqapı" sarayını ziyarətə gedirik. Böyük ərazidə yerləşən bu möhtəşəm sarayın salonlarını gəzib qurtarmaq mümkün deyil. Burada Osmanlı imperiyasının 15-ci əsrin ortalarından (1453-cü ildən) 19-cü əsrin ikinci yarısınadək olan dövrünü əks etdirən tarixi eksponatlar toplanmışdır. Saray mətbəx qablarına aid eksponatlar salonundan başlanır. Burada elə qazanlar var ki, bir cöngəni diri-diri içində yerləşdirmək olar.

"Topqapı" sarayında gördüyüm və yə'qin ki, heç zaman yadımdan çıxmayacaq eksponatlar Məhəmməd Peyğəmbərin saqqalının bir tükü, bir ayağının izi, məzarından bir ovuc torpaq, onun qılıncı, sonra Ömərin, Osmanın, Əlinin qılıncları idi.

"Topqapı" sarayından sonra Sultan Əhməd məscidinə gəlirik. 6 minarəli camedir. 1609-cü ildə tikilməyə başlanıb, 1617-ci ildə tikilib qurtarıb. Məscidin inşasında 1000 nəfər iştirak edib.

Məscid qapısında ayaqqabılarımızı çıxarıb içəri daxil oluruq. Geniş zallar adamı heyran edir. Məscidin döşəməsi başdan-başa eyni naxışlı xalılarla örtülüb. Məscidi me'mar Mehmet tikib. Hündürlüyü 43 metrdir. Məscid Mərmərə dənizinin sahilində ucaldılıb. Məscidin divarlarındakı, sütunlarındakı bütün yazılar ərəbcədir, indiyənəcən saxlanılır və heç zaman dəyişdirilməyəcəkdir. Müxtəlif guşələrində bükülüb yatan, ibadət edən, bardaş qurub oturan adamları allah evində qoyub, onlarla fikrən xudahafizləşərək ayaqqabılarımızı geyib maşınlara minirik. Maşın karvanı "Kələndər" ordu evinə yol alır.

Bu günün təəssüratı bir ömrə bəs edər. Bir gün ərzində Türkiyə tarixinə "səyahətə" çıxmaq asan məsələ deyildir...

Gec yatmağıma baxmayaraq (gündüz etdiyim qeydləri gecə saat 3-ə qədər qaydaya salmışam), səhər tez oyanıram. Saat 8-də səhər yeməyini yeyirik. Çünki bugünkü proqram daha gərgindir. İstanbulda onu başa çatdırıb, təyyarəylə Ankaraya uçacağıq. Səhər yeməyindən sonra "Kaləndər" ordu evi ilə xudahafizləşirik. İndi də "Əsgəri muzey"ə ziyarətə gedirik.

Muzeyin əsası 1453-cü ildə (yə'ni İstanbul fəth edilən ili) Fateh Sultan Mehmet tərəfindən qoyulmuşdur. 1993-cü ildə sonuncu dəfə yenidən qurulmuşdur. Muzeydə Osmanlı imperiyasının yarandığı vaxtdan (1281-ci il) bu günə qədər türk millətinin, Türkiyə dövlətinin, türklüyün və türkçülüyün əsgəri, hərbi qüdrətini əks etdirən eksponatlar toplanmış və nümayiş etdirilir.

**Tarixi arayış:** İlk yaranışı 1726-cı ilə qədər uzanan "Əsgəri Muzey"in çox çətin keçən 267 illik bir dövrdən sonra yeni sərgilərini öz ziyarətçilərinin xidmətinə təqdim etmişdir. Muzeydə 9 min eksponat nümayiş etdirilir.

Fateh Sultan Mehmetin İstanbulu fəthindən sonra qiymətli silah, nəqliyyat və digər materialları Aya İrini kilsəsində toplatmasıyla "Əsgəri Muzey"in yaradılmasına doğru ilk addımlar atılmışdır.

"Cəbbəxana" adlanan bu yer bu günün baxımından muzeyə oxşamasa da, qiymətli eksponatları bir yerə toplayıb qoruyaraq, dəyərli bir muzey yaratmaq fikrini ortaya atmışdır. 18-ci yüzilliyin əvvələrindən e'tibarən Osmanlı imperatorluğunda başlayan yeniləşməyə paralel olaraq, qərb nümunələrinə uyğun bir muzey yaradılması fikri yaranmış və bu istiqamətdə "Cəbbəxana" yenidən işləyərək 1726-cı ildə "Dar-ül Əsliha" adıyla açılmışdır.

"Dar-ül Əsliha" III Cəlim (1789-1807) və II Mahmud (1808-1839) dövrlərində meydana gələn Yeniçəri üsyanları zamanı təzyiqlərə mə'ruz qalmış, zaman-zaman itkilərə uğrayaraq dağıdılmışdır. 1826-cı ildə Yeniçəri mərkəzinin aradan qaldırılmasıyla buradakı bir çox əsərlər, onlara aid olduğu zənn edildiyindən təhrif edilmişdir.



Sultan Əbdülməcid dövrünə qədər bağlı qalan muzey, 1848-ci ildə Topxana əmiri Müşiri Fəthi Əhməd Paşanın sə'yləri nəticəsində "Muzeyi Əsgəri" adıyla Aya İrinidə sərgilərini yenidən açmışdır. Sultan Əbdülməcid (1839-1861) muzeyi gəzdikdən sonra çox bəyənmiş və təqdir etmişdir.

İkinci Məşrutiyyətin e'lanından sonra hərbiyyə naziri Mahmud Şövkət Paşa, Əhməd Muxtar Paşaya Avropadakı nümunələrə uyğun bir "Əsgəri Muzey" yaratması üçün ona tapşırıq vermiş və özünü də ilk muzey müdiri vəzifəsinə tə'yin etmişdir. "Əsgəri Muzey" Əhməd Muxtar Paşanın səy'ləri nəticəsində, muzeyçilik anlayışına uyğun olaraq, "Muzeyi Əsgəri Hümayun" adıyla yenidən qurulmuşdur.

Əhməd Muxtar Paşa dünyanın ilk əsgər bandosu (orkestri – R. D.) sayılan "Mehtər"i tə'yinatına uyğun olaraq, "Mehtəraneyi-Xaqani" adıyla fəaliyyətə keçirmişdir.

1908-1923-cü illərdə Əhməd Muxtar Paşanın müdirliyi dövründə dövlətin içində olan savaşlar, daxili və xarici siyasi hadisələr muzeyin fəaliyyətində də öz mənfi rolunu oynamışdır. "Əsgəri Muzey" cümhuriyyət dövründə öz fəaliyyətini davam etdirmişdir. İkinci dünya savaşı zamanı onun qiymətli eksponatları Niqdeyə daşınaraq mühafizə edilmişdir. Müharibə bitdikdən sonra muzeyin eksponatları yenidən İstanbula gətirilmiş, əvvəlcə Maçka qışlasında toplanmış, sonra isə Əski Hərbiyyə Jimnastik xanəsinə gətirilmişdir. Müxtəlif dövrlərdə müxtəlif məqsədlər üçün istifadə edilən bu bina muzey üçün yenidən hazırlanmış və 31 avqust 1959-cu il tarixdə "Türkiyə Əsgəri Muzeyi" adıyla istifadəyə verilmişdir.

Lakin bu binanın "Əsgəri Muzey" eksponatlarına uyğun gəlməməsi 1966-cı ildə Hərbiyyə binasının "Əsgəri Muzey" kimi istifadə edilməsi fikrini ortaya atmışdır. Beləliklə, həm "Əsgəri Muzey"in eksponatları üçün uyğun salonlar əldə edilmiş, həm də Mustafa Kamal Atatürkün təhsil aldığı tarixi Hərbiyyə Binasının yaşadılması məqsədəuyğun olmuşdur. Binanın içinin və dışının restavrasiyası 1992-ci ilin yanvarında tamamlanmış və 10 fevral 1993-cü il tarixdə Hərbiyyə Binası "Əsgəri Muzey" kimi istifadəyə verilmişdir.



Ankara. "Etimeskut" hava limanı. Soldan: Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı böyük elçisi professor Məmməd Əliyev, Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant Səfər Əbiyev, Türkiyə Respublikasının Müdafiə naziri Oltan Sunqurlu



Muzeyin ilk ekspozisiyalarından birində Osmanlı imperiyasının banisi Osman Qazinin oğlu Orxan Qazinin dəbilqəsi nümayiş etdirilir. Oxçuluq dövrünü əks etdirən eksponatlardan ayrılmaq mümkün deyil. Burada hər cür (daha doğrusu, nə zamansa mövcud olmuş) ox və yayları görmək olar. Biruclu, ikiuclu, çoxuclu oxlar və onların yayları... Yaya qoyulmuş ox elə canlıdır ki, sanki əlini toxunduran kimi atılacaq. Sanki elə buna görə də, hər eksponatın üstündə xəbərdarlıq edilərək, "toxunmayın" yazılmışdır. Bu salonda XVI-XIX əsrlərdə istifadə edilən Osmanlı ox-yayları nümayiş etdirilir. Hüsaməddin Paşa 1882-ci ildə keçirilən "oxatma" yarışında daha uzağa ataraq, birinci yeri tutduğuna görə, onun oxu eksponat kimi muzeydə saxlanılır. Onun adına yazılmış "ox mənzil" daşı da muzeydədir.

"Oxçuluq" dövründən sonra "atçılıq" dövrü gəlir. Burada XIX-XX yüzillərə aid olan, atçılıq və süvarilik ilə bağlı eksponatlar qoyulmuşdur. 45-ci Süvari alayının eksponatları tarixdən-tarixə keçərək, bu zalda məskən tapmışdır.

Nalbənd əsləhəsi, nallar, çəkiclər, mismarlar, üzəngilər, mahmızlar və digər əşyalar şüşə altındadır. Süvari cəngavərlərin işlətdikləri çeşidli silahlar... Burada çox maraqlı bir eksponat diqqətimi cəlb edir: həlqələrinin ağırlığını müəyyən edə bilmədiyim nəhəng bir zəncir.

Yeddinci Osmanlı sultanı Fatehin (1451-1481) İstanbulu fəthi zamanı (29 may 1453) osmanlı gəmiləri bu zəncirlərlə quruyla sürüdülə-sürüdülə bizanslıların Xalic girişinə endirilmişdir. "Osmanlı padşahları bölümü"ndə Fateh Sultan Mehmetin at üstündəki heykəli adamı heyrətə gətirir. Sanki canlıdır. "Hə!" – desə, at yerindən sıçrayacaq. Doqquzuncu Osmanlı sultanı Yavuz Sultan Səlimin (1512-1520) köşəsindən gözlərini çəkmək istəmirsən.

"Kəsici silahlar", "Ələmlər" bölmələri bir-birindən gözəldir, heyrətlidir. O zamanlar bayraq ələmləri mövcud imiş. Ələmlərin başlığına bayraqlar keçirilirmiş. Bunlar döyüş bayraqları kimi istifadə edilirmiş. 2 metr uzunluğunda olan qılınc diqqəti cəlb edir. Bu, iki əllə vurulan qılıncdır. Onu tək əllə qaldırmaq mümkün deyil. Sonra yataqan nümunələrini seyr edirik. "Yataqan" qılınc növlərindən hərbi dəniz qüvvələrində istifadə edilərmiş.



Anıt qəbri. Əli avtomatlı türk əsgəri sanki daşlaşıb...



Mustafa Kamal Atatürkün ziyarətgahı. Anıt qəbrinə gedən yol.

"Zülfüqar" – qılınc. Haçadillidir. "Dillərin" uzunluğu təxminən 25-30 santimetrdir. Bu, düşmənin qılıncını vurub əlindən almaq üçünmüş.

Dəbilqələr. Cəngavər dəbilqələri. Burada hər növ dəbilqə görmək olar. O cümlədən müxtəlif cənglərdə istifadə etdikləri dəbilqələr vardır. Sipərlər, dəmir jiletlər, geyimlər. Bunlar qılınckəsməz qiyafələrdir. Zireh gömləklər (köynəklər). At başına geydirilən müxtəlif ölçülü, çeşidli zireh başlıqlara baxdıqca, sanki tarixlərin dərinliyindən üstünə yeriyən süvari qoşunları gözlərinə görünür.

Burada azərbaycanlı seyrçi üçün çox qiymətli və dəyərli olan bir eksponatdan çətinliklə ayrılıram: bu zireh-kömlək Şirvanşah Sultan I Xəlilə aiddir, 1418-1464-cü illərdə yaşamış və hökmranlıq etmişdir.

Atəşli (odlu) silahlar salonuna keçirik. Burada iynəli-çaxmaqlı tüfənglərdən başlayaraq, tarixin müxtəlif dövrlərinə aid hər növ odlu silah vardır. 8 lüləli tapança çox maraqlıdır. Onun lülələri yelpizək kimi açılmışdır və qarşıdan gələn çoxsaylı düşmənə atəş açmaq üçündür.

Benzinlə işləyən tüfəngdən gözlərimi çəkə bilmirəm, insan zəkası insana qarşı nələri ixtira etməmişdir? Osmanlı imperiyası XX yüzilliyin əvvəlində. İynəli-toplu-bıçaqlı tapançalar eksponatı. Qəhramanlıq anısı topu. Birinci mərtəbəni sür'ətlə gəzib qurtarırıq. İkinci mərtəbə. Böyük hərflərlə yazılmışdır:

BİRİNCİ DÜNYA SAVAŞI.
QURTULUŞ SAVAŞI.
QURTULUŞ DÖNƏMİ.

Birinci dünya savaşı zamanı türk ordusunun Baş Komandanı Ənvər Paşaya aid eksponatlar: geyimlər, silahlar və digər əşyalar xüsusi məhəbbət və sayğıyla burada saxlanılır. Çünki bu sərkərdənin Türkiyə dövlətçiliyinin qorunub saxlanılmasında tarixi rolu vardır. Təl'ət Paşanın qanlı köynəyi də burada saxlanılır. Onu ermənilər öldürmüşlər.



57-ci alay komandiri şəhid yarbay (podpolkovnik – R. D.) Hüseyn Ayni bəyə aid geyimlər: onun güllələrdən deşik-deşik olan qanlı kiteli türk xalqının İstiqlal mücadiləsindəki şanlı keçmişindən xəbər verir. Yarbay Aynibəyin komandirlik etdiyi alay Çanaqqala döyüşlərində strateji baxımdan çox əhəmiyyətli bir mövqedə düşmənə qarşı çarpışırmış. Buraya əlavə qüvvələr gətirmək üçün vaxt udmaq lazım imiş. Mustafa Kamal Paşa Atatürk Yarbay Hüseyn Aynibəyə aşağıdakı mətndə bir əmr göndərir: **"Mən sizə ölməyi əmr edirəm"**. Bu, məcazi sözlər deyildi. Həyata real keçirilməsi lazım olan bir əmr idi. Alayın döyüşçüləri bir nəfər kimi, son güllələrinə qədər döyüşür və şəhid olurlar. Döyüş niyyəti yerinə yetirilir. Tarix və xalq belə qəhrəman oğullarını unutmaz. İnsan ömrünün ən böyük tə'yinatı – vətən uğrunda ölməkdir.

Yarbay Hüseyn Aynibəyin və onun döyüşçülərinin qəhrəmanlığı elə bir zirvədədir ki, o hər yerdən görünür və sən bu igidləri öz doğman, əzizin hesab edir, onlara öz oğluna, qızına yandığın kimi yanırsan...

Bu muzeydə Türkiyə dövlətinin hərbi mübarizə tarixinə dair çox şey vardır. Yox, yanıldım. "Hər şey vardır!" – demək lazımdır. Lakin burada ən yüksək və qiymətli eksponat – türk ləyaqətidir.

Yunanlarla müharibədə (1922), onların Baş Komandanı öz ordusuyla türk qoşunları tərəfindən əsir götürülür. Əsgərlər Yunanıstanın dövlət bayrağını yerə sərirlər ki, Ali Baş Komandan, marşal Mustafa Kamal Paşa Atatürk bayrağı tapdalayıb üstündən keçsin. Lakin Atatürk bayrağı yerdən götüzdürərək **"Heç bir xalqın ləyaqəti buna yol verməz!"** – deyir. Gəzdiyimiz bölmədə bu səhnəni əks etdirən bir panoram asılmışdır.

Türk xalqının iki marşalı vardır: Mustafa Kamal Paşa Atatürk və Fevzi Çakmak. Hər ikisi bu ali rütbəyə Qurtuluş Savaşında layiq görülüblər.

Muzeydə Mustafa Kamal Paşa Atatürkün həyat və fəaliyyətini əks etdirən bir neçə zal vardır. Onun istifadə etdiyi əşyalar, geydiyi ayaqqabılar, kostyumlar, ev xalatları, xəstə ikən dizinin üstünə örtdüyü (diz örtüsü) şallar, bel kəməri, tapançaları, qoburu, ona bağışlanılan müxtəlif qılınclar və s. qiymətli eksponatlar kimi bu zallarda toplanmışdır.

Nəhayət, bayraqlar və çadırlar nümayiş etdirilən zalları gəzirik. Osmanlı imperiyasının ən qədim zamanlardan, müxtəlif dövrlərdə qoşunların istifadə etdiyi üst geyim formaları (qiyafələri) və sultanların səhra şəraitində işlətdikləri çadır nümunələri bu zallarda qoyulmuş və qurulmuşdur. Türkiyə dövlətinin uzaq keçmişi dövrümüzə gətirilib bu muzeydə yerləşdirilmişdir.

Muzeyi ziyarət etdikdən sonra bizim televiziya ekranlarında gördüyümüz "Mehtər" ansamblının konsertinə baxdıq. Bu ansambl da sanki muzeyin canlı bir eksponatı kimi seyrçilərə nümayiş etdirilir. "Mehtər" Osmanlı imperiyasının apardığı bütün tarixi savaşların iştirakçısıdır. Onun musiqisi döyüşləri müşayiət edərmiş və türk əsgərlərinə ruh verərmiş. Belə deyirlər ki, müharibələrdə əldə edilən qələbələrdə "Mehtər" marşlarının xidməti türk silahının xidmətindən az deyildir...

**Tarixi arayış:** Dünyanın ən qədim əsgər orkestri kimi, "Mehtər"in tarixi VIII yüzillikdə yazılmış və türk tarixinin ən qədim yazılı qaynağı olan Orxon kitabələrinə qədər uzanmaqdadır. Orxon kitabələrində "Kübürgə" və "Tuğ" çalğılarından bəhs edilir. XI yüzillikdə yazılmış türkcənin ən qədim sözlüyü olan "Divani lüğəti- t-türkdə" Xaqanın hüzurunda halay vuran musiqi qrupuna "Tuğ" adının verildiyi yazılıb.

Qədim türk dövlətlərinin tuğ bölmələrində yer tutan musiqi alətləri kövrük (kös), tomruk (davul), cəng (cil) kimi sazlar Osmanlı Mehtərxanəsindəki çalğı alətlərinin prototipləri olub. Türk borusunun XII yüzillikdə "Nayi-Türki" adıyla məşhur olub savaşlarda çalındığını tarixi qaynaqlar söyləyir.

Türk hökmdarlarının hakimiyyət simvollarından olan davul və sancaq islamiyyətdən sonra yaradılan türk dövlətlərində də bir hakimiyyət rəmzi olaraq istifadə edilmişdir. "Tuğ" adı Böyük Səlcuqlar dövründən başlayaraq Təbilxana və Növbətə, Osmanlılar dövründən isə Mehtər musiqisinə çevrilərək, ən'ənə kimi davam etdirilmişdir.

Osmanlı dövlətinin qurucusu olan Osman Qaziyə 1289-cu ildə bəylik dərəcəsi verən Anadolu səlcuq hökmdarı Sultan II Qiyasəddin Məs'udun göndərdiyi hakimiyyət rəmzlərindən olan tuğ, sancaq, boru, zil və davul da özünə layiqli yer tutmaqda idi. Bu hadisə Osmanlı dövlətində "Mehtər"in ilk yaranışı kimi qəbul edilir.

Osmanlılar "Mehtər" ən'ənəsini XII yüzillikdən başlayaraq, böyük bir təşkilat, intizam və musiqi keyfiyyət nişanəsi kimi inkişaf etdirmişlər. XVI yüzillikdən e'tibarən yazılan qanunnamələrə əsasən "Mehtər" yalnız hökmdarın qapısında növbət vuran bir quruluş halından çıxarılaraq, idarə və əsgəri dövlət təşkilatlarında vəzifə alan sədrə'zəm, vəzir və eşidi rütbələrinə görə bəylərbəyləri ilə Sancaq bəylərinə də müxtəlif mərtəbələrdə "Mehtər" yaratmaq icazəsi verilmişdir.

"Mehtər" döyüşlərdə ifa etdiyi canlı və dinamik havaları ilə əsgərləri coşdurmuş və düşmənlərin canına vahimə salmışdır.

1826-cı ildə Sultan II Mahmudun Yeniçəri Mərkəzini aradan qaldırması ilə onun bir parçası və ordunun simvolu olan mehtərxanə də ləğv edilmiş və onun yerinə Avropa dövlətlərində olduğu kimi "Əsgər orkestri" yaradılmışdır.

Qədim Yeniçəri orkestrini və ordusunu simvolik olaraq təmsil etmək üçün "Mehtər" 1914-ci ildə "Əsgəri Muzey" binasında yenidən yaradılmışdır. Birinci dünya savaşı, Qurtuluş savaşı və cümhuriyyətin ilk illərində "Əsgəri Muzey"də fəaliyyətini davam etdirən "Mehtər" 1933-cü ildə

yenidən ləğv edilmişdir. 1952-ci ildə Genelkurmay Başqanı (Baş Qərargah rəisi - R.D.) orgeneral Nuri Yamutun əmri ilə "Əsgəri Muzey" binasında olmaqla yenidən yaradılmışdır. O indi də Türkiyədə və xarici ölkələrdə konsert proqramları ilə çıxış edərək, öz fəaliyyətini davam etdirir...

Çox yorulmuşuq.

"Mehtər" əsgər orkestrinin çılğın, nikbin, ruhlandırıcı marşları bu yorğunluğu canımızdan nə qədər çıxarsa da, "Əsgər Muzeyi"ni saat yarım ərzində gəzib qurtarmaq fikri beynimizdən çıxmır. Türk hərb tarixini saat yarım ərzində "ziyarət etmək" asan iş deyildir...

Nahar vaxtıdır. "Gəlik" restoranına gəlirik. Restoranın adı ilə maraqlanıram. Sözün kökü "gəl"dir. Yə'ni "gəlmək", "gəlib görüşmək". Bəlkə də "görüş" mə'nasını verir. Doğrudan da gəlməyinə dəyərmiş...

İstanbulla vidalaşırıq. Demək asandır. İstanbulla vidalaşmaq olurmu? Şəhərlər şəhəri, şəhərlər gözəli, dünya gözəli İstanbulla vidalaşmaq, ondan ayrılmaq mümkün deyildir. Mən İstanbulu ürəyimdə aparıram.

Saat 13.30-da Atatürk hava limanından Ankaraya uçuruq. Saat 14.20-də "Etimeskut" əsgəri hava limanında yerə enirik. Türkiyə Respublikasının Müdafiə naziri Oltan Sunqurlu Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant Səfər Əbiyevi beynəlxalq hərbi qəbul standartları səviyyəsində qarşılayır. Maşın karvanı Ankaradakı Mərkəzi Ordu evinə yola düşür. Ankara başqa şəhərdir. Birincisi, burada İstanbuldakı "Boğaziçi" mö'cüzəsi yoxdur. İkincisi, İstanbuldakı sıxlıq, darısqallıq burada gözə dəymir. Geniş asfalt yollar, ətrafa hakim kəsilən göydələnlər diqqəti cəlb edir. Şəhər sanki təpəciklər üstündə tikilib. Yaylağa oxşayır. Burada da əksər evlərin üstü qırmızı kirəmitlə örtülmüşdür, amma İstanbuldakı kimi deyildir.

Ankarada Mərkəzi Ordu evində yerləşirik. Nümayəndə hey'ətinin hər üzvünə bir lüks nömrə ayrılmışdır. Burada hər cür şərait vardır. Qısa istirahətdən sonra Anıt Qəbri ziyarət



etmək üçün yola düşürük. Mustafa Kamal Paşa Atatürkün məqbərəsi burada yerləşir. Maşınlardan düşən kimi, qarşımızda sanki üfüqə söykənən geniş bir meydan açılır. Məqbərəyə qədər uzanan meydan iri pilitələrlə döşənmişdir. Pilitələr elə qoyulub ki, aralarında boşluq (məsafə) saxlanılıb və boş sahələrdə sanki əkilmiş ot göyərib. Bu, "daş-ot" əvəzetməsi meydana xüsusi gözəllik verir. Burada hər şey sadədir. Təmtəraqdan, "qışqırtı"dan heç bir əlamət yoxdur. Hər şey istifadə üçündür. Ümumiyyətlə, Türkiyədə ziyarət etdiyimiz hər bir dövlət əhəmiyyətli, tarixi obyektlərdə bizim sosializm mühitində gördüyümüz obyektlərdəki "yalançı pafosa", "gözə soxulan" artıq şeylərə rast gəlmədik. Hər şey öz ilkin gözəlliyində, təbiiliyindədir. "Topqapı Sarayı" kimi əzəmətli bir muzeyə girəndə, özünü qədim bir kənddə hiss edirsən... Nə isə...

Mustafa Kamal Paşa Atatürkün mavzoleyində də hər şey onun özü kimi adi və sadədir. Yalnız genişlik, ucalıq əsirliyinə düşürsən. Bu, Atatürk ucalığı və möhtəşəmliyidir. Keçdiyimiz yol boyu, məqbərəyədək türk əsgərləri müqəddəs postlarda fəxri qarovulda dayanmışlar. Əli avtomatlı bu türk əsgərləri də sanki daşlaşıblar, əbədiləşiblər. Gözlərini də qırpmırlar.

Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant Səfər Əbiyev Fəxri Qarovulun qarşısından keçir. Atatürkün məqbərəsi önünə çələng qoyur. Xatirə kitabına söz yazır, imza atır. Sonra Mustafa Kamal Paşa Atatürkün muzeyini ziyarət edirik. Muzey də çox sadədir. Artıq, yorucu heç bir şey gözə dəymir. Böyük öndərin keçdiyi uzun, böyük, müqəddəs həyat yolu burada qısa və yığcam şəkildə eksponatlarda öz əksini tapmışdır. Muzeydə 1923-cü ildə Türkiyə Respublikasına qonaq gələn Azərbaycan Sovet Sosialist Respublikası nümayəndə hey'ətinin Mustafa Kamal Paşaya bağışladığı hədiyyə də saxlanılır. Gördüklərimi vaxt darlığından qeyd edə bilmədiyimdən təəssüf hissiylə Atatürk Muzeyindən ayrılıram. Ümid edirəm ki, bir də buraya

qayıdacağam və o zaman türk dünyasının və bəşəriyyətin böyük oğlu Mustafa Kamal Paşa Atatürkün xatirə borcunu qaytaracağam...

## *10 İYUN*

Səhər yeməyindən sonra saat 9.15-də Türkiyə Respublikasının Müdafiə naziri Oltan Sunqurlu Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant Səfər Əbiyevi qəbul edir. Müdafiə nazirimiz Fəxri Qarovulun önündən keçir. Yüksək təntənə əsirliyindəyik. Türkiyədə keçirdiyimiz bütün günlərdə olduğu kimi bu gün də Azərbaycanlı qonaqlara qarşı qeyri-adi həssaslıq və qonaqpərvərlik nümayiş etdirilir.

Müdafiə Nazirliyinin girəcəyində Mustafa Kamal Paşa Atatürkün tuncdan tökülmüş heykəli qoyulmuşdur. Mən hələ belə gözəl heykəl görməmişəm. Heykəldə Mustafa Kamal Paşanın bütün əzəməti əks edilmişdir. Gözləri o qədər canlıdır ki, sanki ona baxanları sevgi və sayğıyla ovsunlayır...

Türkiyə Respublikasının Müdafiə naziri Oltan Sunqurlu ilə görüş qurtardıqdan sonra nümayəndə hey'ətimiz Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi orgeneral İsmayıl Haqqı Qaradayının rəsmi görüşünə gedir. Bu görüş Azərbaycan Respublikası Müdafiə Nazirliyi nümayəndə hey'ətinin Türkiyə Respublikasına rəsmi səfərinin zirvəsidir. Burada gəlişimizin əsas məqsədi həyata keçiriləcəkdir.

Saat 10.30. Türkiyə Respublikası Silahlı Qüvvələri Baş Qərargah rəisinin iş otağı. Azərbaycan Respublikası Müdafiə Nazirliyi nümayəndə hey'ətinin üzvləri, türk generalları və digər rəsmi şəxslər burada toplaşmışlar. Saziş imzalanır. Onu Azərbaycan Respublikası tərəfindən Müdafiə naziri general-leytenant Səfər Əbiyev və Türkiyə Respublikası tərəfindən orgeneral İsmayıl Haqqı Qaradayı imzalayırlar. Saziş Azərbaycan Respublikası və Türkiyə Respublikası Silahlı Qüvvələri arasında bilik və təcrübə mübadiləsi, təhsil və təşkilat, müdafiə sənayesi, müştərək istehsal, hərbi tibb və sağlamlıq xidmətləri, sosial, idman və mədəni məqsədli fəaliyyətlər, hərbi hüquq və məhkəmə işləri, hərbi tarix və hərbi nəşriyyat, eləcə də arxiv xidmətləri sahəsində əməkdaşlıq barəsindədir.



Saziş imzalandıqdan sonra ordu generalı İsmayıl Haqqı Qaradayı Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant Səfər Əbiyevi və nümayəndə hey'ətinin digər üzvlərini bir daha salamladı və Sazişın tarixi əhəmiyyətindən danışdı. Onu Türkiyə Respublikası və Azərbaycan Respublikası Silahlı Qüvvələri arasında qarşılıqlı yardım sahəsində yeni mərhələnin və dövrün başlanğıcı kimi qiymətləndirdi. Sonra Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant Səfər Əbiyev nitq söylədi:

"Möhtərəm" Baş Qərargah rəisi!

Hörmətli generallar və zabitlər!

Biz indi Azərbaycan Respublikası və Türkiyə Respublikası Silahlı Qüvvələri arasında əməkdaşlıq barəsində saziş imzaladıq. Hesab edirəm ki, bu saziş Azərbaycan xalqının, Azərbaycan Respublikasının və onun Silahlı Qüvvələrinin həyatında tarixi bir hadisədir. Bu saziş Azərbaycan Respublikası Silahlı Qüvvələri quruculuğunun gedişində yeni mərhələnin başlanğıcının əsasını qoyur.

İcazə verin, bu tarixi gündə yaxın keçmişə kiçik bir ekskurs edim. 1918-ci il mayın 28-də Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi altında Azərbaycan Milli Şurası tərəfindən ilk dəfə müsəlman-türk dünyası tarixində Azərbaycan Demokratik Respublikası e'lan edildikdə, gənc respublika 4 tərəfdən imperialist dövlətlərin işğalçılıq məngənəsində boğulurdu. O zaman özünün çox ağır vəziyyətdə olmasına baxmayaraq, Türkiyə dövləti öz qardaşlıq və dostluq yardımını yenicə yaradılmış Azərbaycan Demokratik Respublikasından əsirgəmədi. 1918-ci il iyunun 4-də Batumda Azərbaycan Demokratik Respublikası ilə Türkiyə dövləti arasında hərtərəfli hərbi yardım haqqında böyük saziş imzalandı

və 3 ay müddətində unudulmaz Nuru Paşanın komandanlığı altında Türk-Azərbaycan qoşunları bolşevik-daşnak qoşunlarını darmadağın edib Azərbaycan torpaqlarını onlardan təmizlədi və Bakını azad etdi. 1918-ci il sentyabrın 17-də Azərbaycan Demokratik Respublikası hökuməti başda Fətəli Xan Xoyski olmaqla Gəncədən Bakıya köçdü.

78 il keçdikdən sonra, yenə də iyun günlərində iki qardaş xalqın Silahlı Qüvvələri arasında qarşılıqlı yardım və mübadilə haqqında saziş imzalanması tarixin qanunauyğun şəkildə təkrar olunmasıdır. Mən Azərbaycan Respublikasının Müdafiə naziri kimi, bu sazişi imzaladığıma görə özümü xoşbəxt hesab edirəm. Bu sevincimi burada iştirak edən əziz türk qardaşlarımızla və bizim nümayəndə hey'ətinin hər bir üzvü ilə bölüşürəm.

Türkiyə Respublikası və Azərbaycan Respublikası dövlətləri arasında mədəni, iqtisadi və siyasi əlaqələrin gücləndiyi bir vaxtda iki dövlətin Silahlı Qüvvələri arasında bugünkü sazişin imzalanması həyati və tarixi zərurətdən doğmuşdur.

Mən qardaşımız olan türk xalqına xoşbəxtlik və əmin-amanlıq arzulayıram. İmzaladığımız sazişin həyata keçirilməsində Sizə və özümüzə uğurlar diləyirəm.

Diqqətinizə görə sağ olun."

Nazirin nitqi alqışlarla qarşılandı. Ordu generalı İsmayıl Haqqı Qaradayı nitqi çox bəyəndi və mətnin ona verilməsini xahiş etdi.

Azərbaycan Respublikası və Türkiyə Respublikası Silahlı Qüvvələri arasında qarşılıqlı əməkdaşlıq haqqında Sazişin imzalanması tarixi bir hadisədir. Hətta deyərdim ki, Azərbaycan Silahlı Qüvvələri quruculuğunda yeni mərhələnin başlanğıcıdır. 700 ildən çox yaşı olan, vaxtilə bütün Avropanı lərzəyə gətirən, bu gün əsgərlərinin sayına görə (811 min nəfər) dünyada yeddinci, silah idxal etməkdə isə dünyada altıncı yerdə olan Türkiyə Ordusundan öyrənməyə çox şey var. Türkiyə Silahlı Qüvvələrində olan nizam-intizam, əsgəri anda sədaqət fanatizm səviyyəsindədir. Türk anası birinci növbədə Türkiyə Ordusu üçün əsgər, sonra isə özü üçün oğul doğur...





Soldan: Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı böyük elçisi professor Məmməd Əliyev, Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant Səfər Əbiyev, Türkiyə Respublikasının Müdafiə naziri Oltan Sunqurlu və b.

Saat 12-00 çağlarında Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahından ayrıldıq.

**Qara Hərb Okulu** (Piyada Hərb Məktəbi - R.D.). Burada azərbaycanlı gənclər də təhsil alır. Məktəblə tanış olmaq və oğullarımızla görüşmək üçün məktəbə gəlmişik. Qısa istirahət və çay içmək üçün süfrəyə də'vət edilirik. Saat 13-00-dır. Xəbərlər. Artıq Türkiyə Respublikasının televiziya proqramları iki ölkənin Silahlı Qüvvələri arasında imzalanmış Saziş haqqında mə'lumatı dünyaya yayırdı. Bu çeviklik ürək açır. Bir az əvvəl iştirakçısı olduğumuz hadisəyə indi ekranda baxırıq. Yəqin ki, xalqımız bu xəbəri məmnuniyyətlə qarşıladı.

Piyada Hərb Məktəbi ilə tanışlığa başlayırıq. Brifinq keçirilir. Türkiyədə gördüyümüz bütün obyektlərdə, istər mülki, istərsə də hərbi olsun, tanışlıq brifinqdən başlanırdı. Yə'ni obyektin tarixi slaydlar və filmoskop vasitəsilə (şübhəsiz ki, şərhçinin köməyilə) qonaqlara əyani şəkildə nümayiş etdirilirdi. Deməli, bütün dövlət əhəmiyyətli idarə və müəssisələrin tarixi əsrlərlə yazılmış, göz qabağında, stol üstündə saxlanılır. Xalq öz tarixi ilə bərabər yaşayır. Tarixlə tərbiyə edilən türk gəncliyi, türk xalqı elə buna görə də öz məmləkətinin əsl sahibidir. Piyada Hərb Məktəbində də bu ən'ənə davam etdirilir.

**Tarixi arayış:** Qara Hərb Okulu 1834-cü ildə İstanbulda yaradılmış və Birinci dünya savaşının sonuna qədər orada fəaliyyət göstərmişdir. 1921-1923-cü (İstiqlal savaşı) illər arasında fəaliyyətini Ankarada, 1923-cü ildən 1936-cı ilə qədər təkrar İstanbulda tə'lim-tərbiyə işini davam etdirmişdir. 1936-cı ildə yenidən Ankaraya köçürülmüş və bu günə qədər indiki yerində fəaliyyətdədir. Məktəbin vəzifəsi: gənc hərbçiləri sağlam əsgər intizamı ilə, doğma ana dilində hərbi biliyə sahib etmək, sağlam bədənli, dönməz xarakterli və Atatürk amalına könüldən bağlı olan zabitlər yetişdirməkdir. Məktəbdə təhsil müddəti 4 ildir. Məktəbin mə'zunları ali hərbi təhsil alırlar. Məktəbin embleminde bu





Türkiyə Respublikası Silahlı Qüvvələrinin Fəxri Qarovulu.

sözləri yazılmışdır:

**VƏTƏN**
**VƏZİFƏ**
**DÜRÜSTLÜK**
**SEVGİ**
**ŞƏRƏF**

Məktəb rəisi olan general-mayorun bələdçiliyi ilə məktəbi ziyarət etdik, onunla tanış olduq. Məktəbin tədris-maddi bazası heyrətamizdir. Bütün proqramlar kompüterləşdirilib. Yeməkxanası sanitariya baxımından qüsursuzdur. Kursantların yemək qəbul etdikdən sonra "istirahət guşəsi" ürək açır. Yuyulan qablar, stollar, oturacaqlar, döşəmə, tavan və divarlar təmizlikdən işıq saçır. Burada təhsil alan gənclərə yalnız oxumaq qalır.

Məktəbin böyük salonunda Qara Hərb Okulunda təhsil alan azərbaycanlı gənclər toplaşmışdılar. Onlar görüşə gəlmiş Azərbaycan Müdafiə Nazirliyi nümayəndə hey'ətini sürəkli alqışlarla qarşıladılar.

Oğullarımızın xarici görünüşü ürək açır, yaraşıqları qəlbimizi qürur hissilə doldurur. Ancaq onlarınmı, bizimmi çox sevindiyimizi tə'yin edə bilmirəm. Sevinc sevincə qarışıb.

Müdafiə naziri general-leytenant Səfər Əbiyev gənclərin qarşısında böyük nitqlə çıxış etdi. Onları Silahlı Qüvvələrimizin səbrsizliklə gözlədiyini söylədi. Azərbaycanımızdan və xalqımızdan, onların ata-anlarının adından uşaqlara məhəbbət yetirdi.

"Əziz hərbi müdavimlər! Əziz oğullarımız!

Sizi Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nümayəndə hey'əti adından və öz adımdan səmimi qəlbdən salamlayıram. Hamınıza doğma Azərbaycanımızdan və ata-analarınızdan böyük salamlar və xeyir-dualar gətirmişik.

Siz Azərbaycan xalqının və Azərbaycan Silahlı Qüvvələrinin Türkiyədəki nümayəndələrisiniz. Siz xalqımızın tarixi keçmişini, mədəniyyətini və adət-ən'ənələrini burada təmsil edirsiniz. Möhtərəm Prezidentimiz Heydər Əliyev çox gözəl deyir ki, biz bir xalq, iki dövlətik. Bu, böyük həqiqətdir. Siz Türkiyə dövlətində təhsil alırsınız.





Sazişin imzalanma mərasimi. Soldan birinci: Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant Səfər Əbiyev; üçüncü: Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi orgeneral İsmayıl Haqqı Qaradayı



Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi orgeneral İsmayıl Haqqı Qaradayı və Azərbaycan Respublikası Müdafiə naziri general-leytenant Səfər Əbiyev. Saziş imzalandıqdan sonra



Türkiyə dövlətinin qədim və zəngin tarixi, həmçinin çox böyük hərb tarixi vardır. Siz bu tarixi dərindən öyrənməlisiniz. Çünki keçmişi bilmədən gələcəyə sahib olmaq çox çətindir. Türkiyə Silahlı Qüvvələrinin tarixini, onun ictimai-siyasi və döyüş hazırlığı ən'ənələrini dərindən öyrənin. Bu sizə Azərbaycan Silahlı Qüvvələrindəki xidmətiniz zamanı lazım olacaqdır.

Siz sabahın zabitləri, Azərbaycan Silahlı Qüvvələrinin gələcəyisiniz. Zabit olmaq böyük şərəfdir. Zabit olmaq həmişə avanqard olmaq, qabaqda getməkdir, çətin sınaqlardan birinci keçmək deməkdir. Odur ki, siz gərgin fiziki, mə'nəvi və elmi hazırlıq məktəbi keçməlisiniz. Bunun üçün burada, oxuduğunuz məktəbdə hər bir şərait vardır. Ondan istifadə edin.

Siz Azərbaycan gəncliyinin o xoşbəxt nəslindənsiniz ki, qardaşımız və arxamız olan Türkiyədə hərb elminə yiyələnirsiniz. Hər hansı elmin öyrənilməsi isə intizamdan başlanır. İntizam olan yerdə qələbə də vardır. İntizama riayət etmək – gələcəkdə qarşıya çıxan çətinlikləri asanlıqla aradan qaldırmaq deməkdir. İntizamlı olmaq – ə'laçı olmaq deməkdir. Buna görə də mən hamınızı intizamlı olmağa çağırıram və bunu sizdən tələb edirəm.

Xalqımız sizi elmli, intizamlı və hazırlıqlı zabitlər kimi gözləyir. Evlərinizə tez-tez məktub yazın, valideynlərinizi intizarda qoymayın. Hamınıza cansağlığı və xoşbəxtlik arzulayıram.

Sağ olun."

Sonra məktəbdə təhsil alan kursantları dinlədi, onların qayğıları, arzuları və istəkləri ilə tanış oldu. Nazir onların bə'zi qayğılarını yerindəcə həll etdi, öz tövsiyyələrini verdi. Mən görüşün sonunda özümlə gətirdiyim "Sənə and içirik Şuşa qalası" sonuncu şe'r kitabımın nüsxələrini oğullarımıza yadigar (kitabı bir az öncə məktəb komandanlığına da bağışlamışdım) verdim. Onların arxamızca "Azərbaycana,

Bakıya bizdən salam aparın!" nidaları indi də qulaqlarımda səslənir.

Saat 15.00-da, Qara Hərb Okulu ilə və orada təhsil alan gənclərimizlə xudahafizləşdik. Qarşıda bizi Türkiyə Respublikasının prezidenti Süleyman bəy Dəmirəl cənabları ilə görüş gözləyir.

Saat 15.25. Prezident iqamətgahının yerləşdiyi Cankaya köşkünə gəlirik. Cankaya türk və Türkiyə gözəlliyinə qərq edilib. Görünən ərazi sanki yaşıl bulud örtüyü altındadır. Bu örtük altında süslənən tərtəmiz asfalt yollar Cankaya köşkünün başına dolanır...

Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəl Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant Səfər Əbiyevi qəbul edir. Görüş xeyli çəkir. Sonra çox sadə, adi insan olan prezident nümayəndə hey'ətini koridora qədər yola salır. Onun gözlərindən müsahibinin ürəyinə sanki mərhəmət və şəfqət yağışı yağır...

Saat 16.15. Özəl Qüvvətlər (Xüsusi Qüvvələr – R.D.) Komutanlığında görüş. Komutanlığın girəcəyində Mustafa Kamal Paşanın bu sözləri yazılmışdır: **"Ən böyük silah – əzm və iradədir".**

Qəbul otağında stol üstünə qoyulmuş iri təqvimdə bir binanın təsviri diqqətimi cəlb edir. Bu görünüşdə nə isə cazibədar bir əlamət vardır. Ancaq tuta bilmirəm ki, bu nədir? Binanın divarından asılmış lövhədəki sözləri oxuduqdan sonra bu duyğum aşkarlanır: "Sevgi xəstəxanası" Xəstəxanaya "Sevgi" adı verilməsi özü əlamətdar və qeyri-adidir. Öyrənirəm ki, Türkiyədə həqiqətən belə bir xəstəxana vardır.

Burada da bizim üçün brifinq təşkil edilir. Axırda Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant S. Əbiyev "Şərəf" kitabına ürək sözlərini yazıb imza atır. Komutanlığın divarında hündür hərflərlə ulu Atatürkün bu sözləri də yaddaşıma əbədi həkk olunur: **"Hürriyyət və İstiqlal mənim xarakterimdir. Mən millətimin ən böyük**



**əcdadının ən qiymətli mirası olan İstiqlal eşqi ilə dolu bir adamam"...**

Səfər proqramı olduqca sıxdır. Ona görə də görüşlər bir-birini əvəz edir. Xüsusi Tə'yinatlı Qüvvələr Komandanlığı. Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant Səfər Əbiyev Fəxri Qarovulun önündən keçir. Türk əsgərləri Müdafiə nazirini salamlayırlar. Burada silah sərgisinə baxırıq. Sərgini təqdim edən şəxslər sıra ilə düzülüblər. Nazir kimə yanaşırsa, həmin şəxs ucadan sanki qışqıra-qışqıra özünü təqdim edir, raport verir. Türk əsgəri sanki dili ilə atəş açır.

Özəl əməliyyat poliqonunda atış nümunələri nümayiş etdirilir. Türk əsgəri xalqımızın dediyi kimi, lap "sərçəni gözündən vurur", mümkün olan ən yüksək xallar yığır. Bir güllə də havaya atılmır. General-leytenant Səfər Əbiyev də, necə deyərlər, "özünü sınayır". Tapançadan hədəfə atəş açır və ə'la nəticə göstərir.

Qapalı atış poliqonunda sözün həqiqi mə'nasında mö'cüzələr gördük. Qaranlıqda atış, arxada dayanmış düşməni görmədən ona atış, əyilərək qıçların arasından arxaya atış, gözləri bağlı vəziyyətdə atış və... toplanan ən yüksək xallar...

Bu tə'limlər xüsusi proqramlar üzrə keçirilir. Qəlbimizdə türk əsgərlərinə tükənməz məhəbbət hissi, türk əsgərinə qarşı qürur və iftixar hissiylə "qapalı poliqon"dan açıq havaya çıxırıq. Xüsusi Tə'yinatlı Qüvvələr Komandanlığını tərk edirik. Keçən hər günün təəssüratı bir-birindən artıq və güclüdür. Bütün bunlar ürəyə və beyinə necə sığır? Bu, ürəyin və beynin öz işidir. Lakin mən Türkiyə torpağına ayaq basdığım gündən ulu dostum, ulu şairimiz, istiqlal mücahidi Xəlil Rza Ulutürkün **"Nə yaxşı ki Türkiyə var!"** şe'rini ürəyimdə oxuyuram. O, bu şe'ri Vətənimizin və xalqımızın ən ağır tarixi dövrü olan 1988-ci ildə Türkiyə Respublikasına, türk xalqına, türklüyə və türkçlüyümüzə həsr etmişdir. Bütün gördüklərimizdən sonra, indi o şe'ri tam

şəkildə oxucuya təqdim etmək vaxtıdır. Əziz oxucum, əziz qardaşım, bacım! Xəlil Rza Ulutürkə rəhmət oxuya-oxuya, bu şe'ri dərindən oxu və öz böyüklüyünü dərk et.

Göydə bulud sıxlaşanda,
Yerdə insan insan ilə toqquşanda

Ac torpağa saf, günahsız cocuq qanı töküləndə,
Lalıxlamış boş şüarlar yerbəyerdən söküləndə

İkiüzlü natiqlərə heç kəs qulaq asmayanda
Dəyənəklə, tüfənglə də Gəncə, Bakı susmayanda

Sumqayıtın vitrinləri çilik-çilik çilənəndə,
Vicdan nədir bilməyənlər, vicdan, ürək diləndə

Od püskürən ağızları heç kəs yuma bilməyəndə,
Həftələrlə yuxusuzlar bircə ağız gülməyəndə,

Ağ bayraqlar kəməndində düşən zaman Şuşa bəndə,
Ağdam yalın əllərini yumruqlayıb döyüşəndə

Bir səs qopdu ürəyimdən: - Nə yaxşı ki, Türkiyə var.
Hər sal daşı, qayası da dəmirləşən böyük diyar!

Nə yaxşı ki, bu dünyada İstanbul var, Ankara var,
Nə yaxşı ki, köksümüzün Türk adlanan səngəri var.

Nə yaxşı ki, Azərbaycan türkləri var,
Nə yaxşı ki, Özbəkistan türkləri var,

Nə yaxşı ki, Türkmənistan, Qazaxıstan türkləri var,
Qırğızıstan, Tatarıstan, Başqırdıstan türkləri var!

Nə yaxşı ki, Altay, Sibir, Uyğurustan türkləri var.
Pərən-pərən edilsə də, adı dəyişdirilsə də,



Ruhu, qanı dəyişməyən Bolqarıstan türkləri var!
Nəsimiyə göydən gələn bir səs verən,

Füzuliyə min il yaşar nəfəs verən pərvərdigar!
Nə yxşı ki, Kərkük, İraq türkləri var,

Bağdad, Hələb türkləri var,
Dayağımdır, bayrağımdır, varlığımdır - Türklüyümüz,

Cəsur, ağuz - Türklüyümüz!
Əməli düz, ürəyi düz - Türklüyümüz

Nə yaxşı ki, Planet var,
Planeti hərləndirən bir qüvvət var!

Savalandan bir az qoca,
Everestdən bir az uca ləyaqət var!

Nə yaxşı ki, Alpamış var, Koroğlu var.
Qərb də, Şərq də mənəm! - deyən türk oğlu var.

Canım-gözüm Xəlil Rza!
Sən dünyaya gəlməmisən - Türk sözüylə öyünəsən.

Gəlmisən ki, insanlığın sinəsində döyünəsən.
Sən böyüksən,

Amma kiçik, sayca kiçik uluslar var,
ümid şamı sönhasöndə.
Udin, nanay, ləzgi, nen var - gözü səndə.

Hardasa bir çukça yaşar, qar altında ağ biçimdə.
Gözü Odlar diyarında, özü lay-lay buz içində.

Türksənsə, qalx! Çat dadına batanların,

Gündüz gözü baxa-baxa yatanların.

Kimdi layiq Türk adına? Hayqır, bilsin hər acgödən.
Özü dustaq ola-ola... özgəsini xilas edən!

Qəlbimdəki riqqət, bu qısa görüşlərin yaratdığı qürur hissi yorğunluğu canımdan çıxarır.Saat 17.30-da bugünkü proqram sona yetir. Otelə qayıdırıq. Bu gün etdiyim qeydləri qaydaya salıram.

Saat 20.00. Türkiyə Respublikasının Müdafiə naziri Oltan Sunqurlu Mərkəzi Ordu evində azərbaycanlı qonaqların şərəfinə böyük şam ziyafəti verir. Əvvəlcə xuruşlarla, müxtəlif spirtsiz və spirtli içkilərlə, meyvələrlə dolu olan masalar arxasında ayaqüstü qəlyanaltı və tanışlıq mərasimi keçirilir. Ziyafətə də'vət edilənlər iki-bir, üç-bir stollar arxasında birbirilə tanış olurlar. Yə'qin bu onun üçündür ki, süfrə arxasında əksəriyyət bir-birini tanısın və özünü sərbəst hiss etsin. Hər dəfə olduğu kimi indi də belə edilir. Ev sahibləri – türk generalları və zabitləri fəallıq göstərərək çalışırlar ki, hamı bir-birini tanısın. Onların zarafatları, "ordan-burdan" söhbətləri, lətifələri təbii, sərbəst "iqlimin" yaranmasına səbəb olur.

Türkiyə Respublikasının Müdafiə naziri Oltan Sunqurlu cənabları Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant S. Əbiyevi və nümayəndə hey'ətinin digər üzvlərini salamlayır, Azərbaycan xalqına səadət arzulayır, tezliklə Qarabağ düyününün açılmasını diləyir, Türkiyə və Azərbaycan Respublikaları Silahlı Qüvvələrinin qardaşlığı şərəfinə badə qaldırır.

Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant Səfər Əbiyev cavab nitqi söylədi:

"Möhtərəm Müdafiə naziri!
Hörmətli generallar və zabitlər!
Hörmətli xanımlar və cənablar!
Əziz türk qardaşlarımız!



Sizi Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbərliyi adından, bu məclisdə iştirak edən nümayəndə hey'əti adından və şəxsən öz adımdan ürəkdən salamlayıram. Biz bu gün sizin aranızda olduğumuzdan çox məmnunuq.

Əziz qardaşlarımız və bacılarımız! Deyirlər ki, tarix təkrar olunur. Bizim bu gün sizin yanınıza gəlməyimiz bu həqiqəti təsdiq edir. Azərbaycan və türk əsgəri tarixən eyni qəhrəmanlıq, ərlik, sərkərdəlik məktəbi keçmişdir. Lakin Azərbaycan xalqı öz geosiyasi vəziyyətinin ağırlığı ucbatından uzun zaman öz tarixindən və soykökündən ayrı salınmış, milli dövlətçiliyini itirmiş və ordu quruculuğunda təcrübə qazana bilməmişdir. Biz 70 ildən artıq bir zamanda türk qardaşlarımızdan da ayrı düşmüşük. Azərbaycan xalqını əhatə edən düşmənlər o zaman olduğu kimi bu gün də amansız və təhlükəlidir. Ona görə də 1991-ci ildə müstəqillik əldə edən Azərbaycan xalqının, suveren Azərbaycan Respublikası dövlətinin qarşısına "Dağlıq Qarabağ" baryeri atılmışdır. Nəticədə biz torpaqlarımızın 20 faizini itirmişik, 20 min nəfər cəngavər oğul şəhid vermişik.

Amansız düşmənlərlə ölüm-dirim mücadiləsində qəhrəman Azərbaycan əsgərinin ruhu ölməz olmuşdur. Bu gün şəhid olmuş qəhrəmanların ölməz ruhunu onların kiçik qardaşları – Azərbaycan Silahlı Qüvvələrinin əsgərləri öz əməllərində yaşadırlar.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə biz Dağlıq Qarabağ problemini sülh yolu ilə həll etməyə çalışırıq. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin komandanlığı və şəxsi hey'əti dövlətimizin bu istiqamətdə həyata keçirdiyi siyasəti dəstəkləyir.

İcazə verin, demokratik Türkiyə Respublikasının, qüdrətli Türkiyə Silahlı Qüvvələrinin, məğrur, qardaş türk xalqının sağlığına badə qaldıraq.

Möhtərəm nazir, Sizin şərəfinizə!
Sağ olun".

## 11 İYUN

Yuxudan tez oyandım. Bu gün Ankarayla vidalaşırıq, səfərimiz başa çatır. Bu günkü proqram da çox sıx və gərgindir. Səhər yeməyindən sonra "F-16" təyyarə zavoduna gəlirik. Hər yerdə olduğu kimi burada da brifinq keçirilir. Fabrik 11 ildir fəaliyyət göstərir. Müştərək fabrikdir. Sexləri gəzirik. Hər yerdə diqqəti cəlb edən səliqə-səhmandır, təmizlikdir. Adamlar öz işləriylə məşğuldur. Burada "F-16" təyyarəsini hissə-hissə və onun tam yığılmışını görürük.

Sonra **Hava Üs Komutanlığı** bizi qəbul edir. Bura "F-16"-nın tə'lim mərkəzidir. Mərkəzin rəhbəri nümayəndə hey'ətini qəbul edir. Brifinq keçirilir. Axırda Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant S. Əbiyev "Şərəf" kitabına ürək sözlərini yazıb imza atır. Buradan Texniki Tə'lim mərkəzinə gəlirik. Xidmət binalarının çöl divarlarına Mustafa Kamal Atatürkün müxtəlif hikmətli sözləri yazılmışdır. Onlardan birini dəftərçəmə yazıram: **"İstiqbal göylərdədir"**. Bu hikməti müxtəlif mə'nalarda yozmaq olar. Birinci mə'na: Tanrı göylərdədir. Hər şey ondan asılıdır. Hər şey onun əlindədir. İstiqbal da Tanrının əlindədir."

İkinci mə'na: "Uçuş sənətinə elə yiyələnmək lazımdır ki, istiqbal uğrunda səmada da düşmənlə çarpışmağı bacarasan". Bu yozumları yə'qin ki, bir-birindən ayırmaq lazım deyil. Hər iki mə'na o zaman Türkiyə Respublikası üçün (elə indiki üçün də!) məqbul və önəmlidir.

Mərkəzdə hər şey uçuşa xidmət edir. Burada hər şey çox sadə və adidir. Xidmət binaları təmtəraqdan və dəbdəbədən uzaqdır. Adi kənd evlərinə oxşayır. İçərisi isə ən müasir texnika ilə təchiz edilmişdir. Burada hər şey işləyir: daş da, divar da, şlaqbaum da, divarlardakı şüarlar da! Hər şey Atatürk amalına, Türkiyə Respublikasının İstiqlalına xidmət edir...

"Nurol" maşın zavodu. Bu zavod lap gəncdir. 4 yaşı var. Buradakı hər şey türk mühəndis təfəkkürünün məhsuludur, kənardan gəlmə heç nə yoxdur.

Zavod şəxsi hey'ət daşıyan 6 təkərli zirehli transportyorlar istehsal edir. Hazır məhsula baxdıq.



Ankara küçələriylə yarım saat ərzində xeyli məsafə qət etdikdən sonra "Aselsana" gəldik. "Aselsan" – askeri elektrik sanayesi. Brifinq. Yaşar Dəmirbağ adlı mühəndis bizim nümayəndə hey'ətinə bələdçilik edir. Burada hər cür telefon aparatları, digər elektrik cihazları istehsal edilir. Gördüklərimizdən razı qalırıq, məmnun oluruq, sevinirik. Doğurdan da "nə yaxşı ki, Türkiyə var." Belə zəngin, təcrübəli, elmli bir qardaş dövlətin, qardaş xalqın olduğunu düşmənlərimiz məharətlə bizdən gizlədiblər. Bu duyğular içndə ikən, Mustafa Kamal Paşa Atatürkün işıq saçan, sözün fiziki mə'nasında işıqlı hərflərlə yazılmış hikməti diqqətimi cəlb edir: **"Nə mutlu türkəm deyənə!.."** Doğrudan da belədir. Bu gün Türkiyə Respublikasında yaşayan türklər nə xoşbəxtdirlər. Birincisi ona görə ki, bu türk oğlu türk, yeri gələndə öz Türkiyəsi uğrunda gözlərini yummadan ölməyi bacarır. İkincisi, onun qüdrətli, möhtəşəm, dəmir intizamlı ordusu var. Üçüncüsü, bu türk oğlu türk, yaşamaq üçün pul qazana bilir, onun zəngin iqtisadiyyatı və çoxsahəli istehsalı var...

Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant S. Əbiyev "Aselsan" zavodunun "Şərəf" kitabına ürək sözlərini yazıb imza atır.

Saat 17.00. "Aselsan"la xudahafizləşdik. "Etimeskut" hava limanına getmək üçün avtobuslara əyləşəndə ayaqlarım gizildəyirdi. Bu altı gün ərzində piyada neçə kilometr yol keçmişik? Rəqəmlərlə deyə bilmərəm. Amma deyə bilərəm ki, Türkiyənin "tarixini", Türkiyənin hərbi müəssisələrini, hərbi birləşmələrini, istehsal müəssisələrini pay-piyada gəzmişik. Altı gün ərzində qət etdiyimiz mədəni-tarixi mə'nəviyyat yolu rəqəmlərlə ölçülməz, rəqəmlərin "dili" ilə ifadə olunmaz...

Ayaqlarım gizildəyirdi. Nə üçün? Bəlkə, hər qarışı türk oğlunun qanı ilə suvarılmış müqəddəs Türkiyə torpağından ayrıldığına görə gizildəyirdi?!... "Etimeskut" hava limanına gəlib çatırıq. İnşallah, Türkiyə vaxtı ilə saat 18.00-da, Azərbaycan vaxtı ilə saat 20.00-da Bakıya yola düşəcəyik...

Türkiyə Respublikası Silahlı Qüvvələrinin Fəxri Qarovulu düzlənir. Qarovul rəisi Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant Səfər Əbiyevə raport verir...

Ankarayla vidalaşırıq. Saat 18.15-də təyyarə Türkiyə torpağından ayrılır. Yenə də qanadlar və buludlar amanındayıq. Altı gün kino lenti kimi gözlərimin önündən gəlib keçir. Bu çoxrəngli, çoxçalarlı bir lentdir. İstanbul, Ankara lenti...

Qulaqlarımda türk əsgərinin öz komandirinə "Əmr edərsiniz, komutanım!" - raportu, türk generallarının birbirinə tükənməz məhəbbət və səmimiyyətlə söylədikləri "Buyurun, Paşam!" - müraciətləri səslənirdi. Az danışan, dindirməsən dinməyən, postlarda sinəsində avtomat heykəl kimi dayanmış, gözlərini qırpmayan türk əsgərinin sərt siması gözlərimin qabağından getmirdi. Hər bir əsgərin, zabitin özündən bir rütbə böyük olan şəxsə "Əvət, komutanım!", "Xayır, komutanım!" - deyərkən üzünün təbəssümlü ifadəsi gözlərimdə canlanırdı. Dəmir, polad intizamlı, tə'lim zamanı istidə, bürküdə təpədən-dırnağadək düyməlnmiş türk əsgər və zabitlərinin mətin addımları gözlərimin qabağından getmirdi.

Türk xalqı, Türkiyə Respublikası xoşbəxtdir. Ona görə ki, Türkiyə Silahlı Qüvvələrində hər bir bölüyün, taburun, tuğayın, korpusun və ordunun, nəhayət, Türkiyə Respublikası Silahlı Qüvvələrinin yaradılmış və yazılmış tarixi onlarladır. Türk əsgəri bu tarixlə nəfəs alır, tərbiyə edilir və vətəninə xidmət edir.

Türk xalqı, Türkiyə Respublikası xoşbəxtdir. Ona görə ki, ağır cənglərdə, çarpışmalarda, tarixin əyri-üyrü, enişli-yoxuşlu yollarında türk xalqı bir düyməsini də itirməmişdir. Tarixi boyu 38 irimiqyaslı savaşda iştirak edən türk bu döyüşlərdə sındırılmış silahlarını, güllələrdən deşik-deşik edilmiş zirehlərini, dəbilqələrini və qanlı köynəklərini yollarda atmamış, itirməmiş, özüylə gətirərək tarix muzeylərində saxlayır.

Türk xalqı, Türkiyə Respublikası xoşbəxtdir. Bu xoşbəxtliyi o özü qazanmışdır. Allah bu xoşbəxtliyi əbədi eləsin, ulu Tanrı öz qanadlarını türk xalqının, Türkiyə Respublikasının üstündən əskik etməsin...

"Təyyarəmiz bir neçə dəqiqədən sonra Binə Hava limanında yerə enəcəkdir". Stüardessamız Lətifə xanımın bu sözləri məni Türkiyə düşüncələrimdən ayırır. Təyyarənin qanadları altında Bakının işıqları görünürdü. Elə bil ki, ulduzlu iri göy parçası yerə enmişdi. Təyyarə torpağa yaxınlaşdıqca biz öz dünyamıza - Bakı, Azərbaycan dünyamıza daxil oluruq.

Təyyarə Bakı vaxtı ilə 22.35-də yerə endi.

Salam, Bakı!

Salam, Vətən!

1996-cı il iyunun 12-də Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidməti informasiya agentliklərinə aşağıdakı məzmunda mə'lumat yaydı:

"Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant Səfər Əbiyev 1996-cı il iyunun 6-dan 11-dək Türkiyə Respublikasında rəsmi səfərdə olmuşdur. O, Türkiyə Respublikasının Müdafiə naziri Oltan Sunqurlu və Silahlı Qüvvələrin Baş Qərargah rəisi orgeneral İsmayıl Haqqı Qaradayı cənabları ilə görüşmüş, onlarla ordu quruculuğu sahəsində fikir mübadiləsi etmişdir. Nazir Türkiyə Respublikasında hərbi təhsil sistemi ilə yaxından tanış olmuş, Hərb Akademiyalarının komandanlığı ilə görüşmüş və akademiyaları gəzmişdir.

General-leytenant Səfər Əbiyev iyunun 9-da Türkiyə Respublikasının banisi Mustafa Kamal Paşa Atatürkün məqbərəsini ziyarət etmiş, məzarına əklil qoymuş və xatirə kitabına imza atmışdır. İyunun 10-da Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müdafiə sənayesi, müştərək istehsal, hərbi tibb və sağlamlıq xidmətləri, sosial, idman və mədəni məqsədli fəaliyyətlər, hərbi hüquq və məhkəmə işləri, hərbi tarix və hərbi nəşriyyat, eləcə də arxiv xidmətləri sahəsində saziş imzalanmışdır. Sazişi Azərbaycan tərəfdən general-leytenant S. Əbiyev, Türkiyə tərəfdən orgeneral İsmayıl Haqqı Qaradayı imzalamışdır.

Səfərin sonunda Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəl Müdafiə nazirini qəbul etmişdir.

İyunun 11-də Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant Səfər Əbiyev və onu müşayiət edən şəxslər Vətənə qayıtmışlar".

## SON SÖZ ƏVƏZİ

Biz Türkiyə Respublikasına səfərin təəssüratı ilə yaşayarkən, Azərbaycan Respublikasının Müdafiə naziri general-leytenant S. Əbiyevin də'vətilə Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi İsmayıl Haqqı Qaradayının rəhbərlik etdiyi nümayəndə hey'əti iyunun 24-dən 26-dək Bakıda rəsmi cavab səfərində oldu. İki dövlətin Silahlı Qüvvələri başçılarının Bakı görüşləri İstanbul-Ankara görüşlərinin davamı idi. Türkiyədə olduğu kimi, Azərbaycanda da bu körüşlər yüksək səviyyədə, qarşılıqlı anlaşma və dostluq şəraitində keçdi.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin nümayəndə hey'əti Bakıda olarkən, mənfur PKK-çılar keçirdikləri növbəti qurultaylarında Türkiyə Respublikasının dövlət bayrağını təhqiramiz şəkildə yerə endirmişdilər. Mən bununla bağlı iyunun 25-də "Türkün bayrağı enməz" adlı şe'r yazmışdım. Şe'rin məzmunu və ruhu işlədiyim mövzuya uyğun gəldiyindən və bütövlükdə Türkiyəyə səfər təəssüratlarımı tamamladığından həmin şe'ri də bu qeydlərimin son sözü kimi oxuculara təqdim edirəm:

Yer məhvərindən dönər,
Türkün məhvəri dönməz.
Ulduzlar yerə enər,
Türkün bayrağı enməz.

Əlində qanlı yaraq,
Tarixi varaq-varaq...
Haqdan ucalan bayraq
Türkün bayrağı enməz.

Bunlar düşmən yalanı –
Yurdumuzun talanı...
Tarix unuda bilməz heç vaxt Çanaqqalanı –
Türkün bayrağı enməz.

O rəng-rəng halqalanır,
Göylərdə dalğalanır...
Bu bayrağın altında dörd dəniz çalxalanır –
Türkün bayrağı enməz.



Düşmən niyyəti...çamır...
Öz nəfəsindən qaçammır.
Yarbay Hüseyn Ayninin qanı bayraqdan damır –
Türkün bayrağı enməz.

Nə tez unutdun? Tanı!
Səni selə atanı...
Bu bayraq tənha qalxdı, yendirdi Antantanı –
Türkün bayrağı enməz.

Göyə dəyən başı var,
Dağdan ağır daşı var...
Yeddi yüz il yaşı var –
Türkün bayrağı enməz.

Al qumaş ziyafəti ,
Ay, ulduz ziyafəti...
Ulu tanrı də'vəti –
Türkün bayrağı enməz.

Min illər... Busat qurar –
Xəyanətlər uçurar...
Nə qədər dünya durar –
Türkün bayrağı enməz.

Qarşısında diz çökün,
Amacında qan tökün...
Ulusal Atatürkün...Mustafa Atatürkün –
Türkün bayrağı enməz.

Bəli, milli amal, məslək və əqidə eşqiylə dalğalanan bir bayraq heç vaxt enməz. Heç kimin torpaqlarında gözü olmayan, yalnız öz müstəqilliyinin və ərazi bütövlüyünün simvolu kimi, qoşa, yanaşı dalğalanan Azərbaycan Respublikasının və Türkiyə Respublikasının dövlət bayraqları heç vaxt enməyəcəkdir.

6-26 iyun 1996-cı il.
BAKI-İSTANBUL-ANKARA-BAKI.

«Hərbi Nəşriyyat»ın rəisi **Fərzullayev M. E.**
Redaktoru **kapitan Əliyev T. M.**
Nəşriyyat redaktoru **kapitan Abiyev M. Ə.**
Texniki redaktoru və rəssamı **Ələkbərov A. A.**
Korrektoru **Quliyeva A. İ.**

Fotolar **mayor Seyidağa Mövsümovundur**

Format 60x84 1/16. Ofset çap üsulu. Uçot-n/v 4.
Sif.4. Tiraj 1000.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin
"Hərbi Nəşriyyat"ında yığılmış və çap olunmuşdur
Bakı - 370007, Ceyhun Hacıbəyli küçəsi, 26.